# AZƏRBAYCAN RESPUBLIKASI AUDİTORLAR PALATASI SƏDRİNİN SƏRƏNCAMI

**Bakı şəhəri** **№ 1/52** **08 avqust 2019-cu il**

**Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 598-ci „Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulması" maddəsinin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Auditorlar Palatasının üzərinə düşən işlərin həyata keçirilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə 2019-cu il 3 iyul tarixli Fərmanına və "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1627-VQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyul tarixli Sərəncamına uyğun olaraq, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 598-ci "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulması" maddəsinin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Auditorlar Palatasının üzərinə düşən işlərin həyata keçirilməsi məqsədilə **qərara alıram:**

1. Bu Sərəncamın preambulasında göstərilən məqsədlərə dair prosedurun işlənib hazırlanması üçün Auditorlar Palatasında aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

***İşçi qrupunun rəhbəri***

Nəcəf Talıbov – Auditorlar Palatasının Şurası yanında Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri, "TNM Audit" MMC-nin direktoru-auditor.

***İşçi qrupunun katibi***

Bəhruzə Qasımova – Şəffaflığın təminatı və korrupsiyaya qarşı mübarizə idarəsinin rəis müavini.

***İşçi qrupunun üzvləri***

Şahbaz Məmmədov – "Cavid-Audit" MMC-nin direktoru-auditor;
Elçin Qurbanov – Auditorlar Palatasının Şurası yanında Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitənin sədri, "VXA-Audit" MMC-nin direktoru-auditor;
İlham Süleyman – "İmdad-Audit" MMC-nin direktoru-auditor;
Nazim Axundov – Sərbəst auditor;
Gülnarə Yusifova – Sərbəst auditor.

2. İşçi qrupuna tapşırılsın ki, 2 (iki) ay müddətində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 598-ci "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında

qanunvericiliyin pozulması" maddəsinin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Auditorlar Palatasının üzərinə düşən işlərin həyata keçirilməsinə dair proseduru hazırlayıb təqdim etsinlər.

3. Şəffaflığın təminatı və korrupsiyaya qarşı mübarizə idarəsinə (B.Qasımova) tapşırılsın ki, bu sərəncamın icrasına dair təşkilati işlərin həyata keçirilməsini təmin etsin.

4. Bu Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Palatanın sədri** **Vahid Novruzov**